

■ Elçin Cəfərov
*teatrşünas*

**Müasir şəhər tarixi və mədəni altyapısı ilə özünəməxsus bir mətndir. Teatrın da bu "mətnin" abzaslarından biri olduğunu nəzərə alsaq, deməliyik ki, şəhər teatr prosesinə təsirsiz qalmır. Bir çox teatrlar öz yerləşdiyi şəhərdən, qəsəbədən, hətta məhəllədən, küçədən kənarda təsəvvür edilə bilməz. Hətta bəzi teatrlar adında da məkan bildiricilərini yaşadır: Misal üçün, "Teatr na taqanke", "Teatr na Maloy Bronnoy", "Teatr na Yuqo-zapade", "Teatr na Fontanke", "Teatr na Podole", "Kovent-Garden Kral Teatrı", "Teatr na korolevskem kvartale" və s.**



# Şəhərimiz və teatrımız...

*(probleme sosioloji baxış)*

Əslində, necə adlanmasından, dünyanın hansı şəhərində olmasından asılı olmayaraq, bütün teatrlar yerləşdiyi şəhərin parametrlərinə uyğunlaşır. Şəhərin coğrafi mövqeyi, ərazisi, böyüklüyü, əhalisinin sayı və etnik tərkibi, sosial-iqtisadi xarakteri, ictimai həyatın səviyyəsi teatrın necəliyinə bilavasitə, yaxud bilvasitə təsir göstərir. Bütün bunlar teatrın refleksiyasının vazkeçilməz predmetləridir. Bununla yanaşı, hər bir şəhərin özünəməxsus idarətemə forması və teatrın qarşısına qoyduğu tələb və vəzifələr də teatrın necəliyinə təsirsiz qala bilməz.

İndi teatr hər şeydən əvvəl şəhər fenomenidir və şəhər həm məkan kimi, həm də tamaşaçıların, tənqidçilərin, yaradıcı kollektivlərin və teatra biganə olan insanların birliyi kimi bir sıra teatr proseslərinin səbəbi və nəticəsidir. Şəhər mühiti bir çox mənada, teatrın özəlliklərini müəyyənləşdirir, teatr da öz növbəsində şəhərin mahiyyətinə gözgörəsi təsir göstərir. Teatr şəhər əhalisinin formalaşmasında, müəyyən dəyərlərin cəmiyyətə ötürülməsində katalizator rolunu oynayır. Çünki şəhərin brendinin formalaşdırılmasında mədəni məkanın tərkib hissəsi olan teatrların xüsusi çəkisi var.

Bu nəzəriyyə. Bəs, görək, təcrübə necədir? Ölkəmizin paytaxtı olan Bakı şəhəri ilə Bakıda fəaliyyət göstərən teatrlar arasında hansı bağlar var, bu iki fenomenin birbiri ilə qarşılıqlı təsir münasibətləri nə cürdür?

Bu gün ölkəmizdə şəhər əhalisinin sayı 53.1%-ə çatıb. Cəmi 2.14 min kv.km ərazisi olan paytaxtımızda hələ rəsmi göstəricilərə görə, 3 milyona yaxın əhali yaşayır. Ölkə üzrə hər 1kv. km-ə əhalinin sıxlığı orta hesabla 109 nəfər olduğu halda, Bakıda hər kv. km.-də 1020 nəfər yaşayır. Məsələnin ekoloji və urbanistik tərəflərinin üstündən keçərək, şəhər və teatr, şəhərin teatrı, şəhər əhlinin teatra marağı kimi mətləblərə yönələk. Düşünmək olar ki, hər kv. km-ində min nəfərdən çox insan yaşayan bir şəhərdə teatrlar tamaşaçı qıtlığı yaşaya bilməz. Ancaq bütün bunlar təəssüf ki, yalnız zahiri təəssüratlardır. Əslində məsələ necədir?

Nə qədər sərt səslənsə də deməliyik ki, bu gün Azərbaycanda, təbii ki, Bakıda da, teatr gərəksizlik sindromu yaşayır. Bakı teatrlarının Bakıya bir elə ciddi təsiri yoxdur. Təbii ki, söhbət teatrların dekorativ xarakter daşımasından yox, şəhərin sosial-mədəni həyatına təsir gücündən gedir. Bu gün Bakının hüsnü dəyişir, paytaxtımızda hər gün yeni parklar, göydələnlər, magistrallar, körpülər, ticarət mərkəzləri və daha nələr-nələr tikilir. Və bəlli olur ki, Bakının bu yeni mənzərəsində teatra yer yoxdur. Elə bu yaxınlarda YUĞ Dövlət Teatrının fəaliyyət göstərdiyi M.Muxtarov 83 ünvanında yerləşən 1888-ci ildə inşa olunan binanın şəhərin baş planına uyğun olaraq sökülməsi də teatrın bu şəhərə lazımlıq dərəcəsini bir daha göstərir.

Şəhər və teatr mövzusu ətrafında mülahizə yürüdərkən publika ilə teatr arasındakı kommunikasiyadan, teatrın şəhər əhlinin mədəni istirahətinin təmin edilməsindən ötrü əhəmiyyətindən də danışmaq lazımdır. Mövcud durumu hamburq hesabı ilə təhlilə çəksək, belə bir faktı ifadə etməyə məcbur və məhkumuq ki, şəhər əhalisinin də teatr sənətinə xüsusi rəğbət və məhəbbətindən danışmaq, teatr sənətinin Bakı əhalisinin mədəni həyatındakı əvəzsiz yerindən söz açmaq utopiyadan başqa bir şey deyil. Kiçik bir sosioloji tədqiqat aparmaq kifayətdir ki, mövcud mənzərə göz önündə canlansın.

Dövlət Statistika Komitəsinin açıqlamalarına istinadən deyə bilərik ki, ölkəmizdə 2000-ci ildə teatra gələnlərin sayı cəmi 925 min nəfər olduğu halda 2014-cü ildə bu rəqəm 193 min azalaraq 728 min nəfər təşkil edib. Halbuki, ölkə əhalisinin sayı 2000-ci ildən 2014-cü ilə kimi 1444,3 min nəfərdən çox artaraq 9477.1 min olub. Çox uzağa getməyib 1986-cı ili nəzərdən keçirsək, həmin ilin 1.828 min tamaşaçısına qarşı 2014-cü ildə bu rəqəmin 728 min nəfər olmasını görəcəyik ki, bu da tamaşaçı böhranının nə qədər kəskin səviyyəyə çatdığını açıq-aydın göstərir.

Daha bir fakt: Statistika Komitəsinin məlumatına görə, 2014-cü ildə teatr tamaşalarına cəmi 728 min nəfər baxıb. Bu isə ölkə əhalisinin hər min nəfərinə 77 tamaşaçı deməkdir.

Nəzərinizə çatdırım ki, həmin göstərici Belarusda 192, Moldovada 113, Rusiyada 255, Qazaxıstanda 125, Ermənistanda 159 nəfər təşkil edir. Göründüyü kimi, ölkəmizdə teatr-tamaşaçı münasibətləri heç də ürəkaçan vəziyyətdə deyil. Beləliklə gəldiyimiz qənaət budur ki,

- Hər şəhərin teatrı elə həmin şəhərin özünə bənzəyir.
- Teatr şəhərin simasıdır. Şəhər simasını müəyyənləşdirdikcə teatrın nüfuzu yüksəlir, əksinə şəhər simasını tapa bilmirsə, teatrı da simasızlaşır, dəyərini itirir və gərəksiz olur.

# Bakıda "Xocalıda qırmızı mələk" tamaşasının premyerası keçirilib



**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə səhnələşdirilən "Xocalıda qırmızı mələk" adlı tamaşanın fevralın 22-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında premyerası olub.**

Tamaşa İtaliyanın "Associazione Arci Bellezza" təşkilatı tərəfindən hazırlanıb.

İtaliyanın tanınmış aktyorlarının ifasında təqdim olunan premyerada hökumət rəsmiləri, Milli Məclisin deputatları, ölkəmizdə fəaliyyət göstərən bir sıra diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının katibliyinin icraçı direktoru Fərasət Qurbanov çıxış edərək Xocalı faciəsi haqqında reallıqları bir daha qonaqların diqqətinə çatdırıb.

Sonra tamaşa nümayiş olunub.

"Cəhənnəmdə böyük çığırtı" kitabının motivləri əsasında hazırlanan "Xocalıda qırmızı mələk" tamaşasının ssenari müəllifi Səbuhi Məmmədli, quruluşçu rejissoru Nihad İsadır. Azərbaycan və İtaliya musiqi nümunələrindən istifadə edilən səhnə əsərində Xocalıda girov götürülmüş şəxslərin acı taleyindən bəhs olunur. Buradakı "Qırmızı mələk" Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində çalışmış, azərbaycanlı əsirlərin "qoruyucu mələy"i adını almış isveçrəli Pyer Reyçel nəzərdə tutulur.



Maraqla qarşılanan tamaşada rol alan italiyalı aktyorlara diplomlar təqdim edilib.

Qeyd edək ki, "Xocalıda qırmızı mələk" tamaşası keçən ilin fevral ayında hazırlanıb və ilk dəfə İtaliyanın Milan şəhərində nümayiş olunub.